DOI:10.30546/gdu.2023.359-361

UOT:796.

# AZƏRBAYCAN GÜLƏŞÇİLƏRİNİN DÜNYA ÇEMPİONATLARINDAKI NAİLİYYƏTLƏRİ

***Qazaxova Şahnaz Xəlilhacı qızı, Rüstəmzadə Ayəd Rüstəm oğlu***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Sərbəst güləş üzrə dünya çempionatlarında sovet idmançıları 1954-cü ildən iştirak etməyə başladılar.*

*Yunan –Roma güləşi üzrə dünya çempionatları 1904-cü ildən keçirilir.Lakin Sovet idmançıları bu növdə dünya çempionatlarında 1953-cü ildən iştirak edirlər.*

*2012-ci ildə yeniyetmələr arasında keçirilən dünya birinciliyi Bakı şəhərində keçirildi.*

**Açar sözlər**: dünya çempionatı, Yunan-Roma güləşi, Sərbəst güləş, kişi güləşçiləri, qadın güləşiləri, çempion

**Key words:** word championship, Greco-Roman wrestling, Freestyle wrestling, mens wrestlers womens wrestler, champion

**Ключевые слова**: чемпионат мира, Греко-Римская борьба, Вольпая борьба, борцы среди мужчин, борцов среди женшин

Sərbəst güləş üzrə dünya çempionatlarında sovet idmançıları 1954-cü ildən iştirak etməyə başladılar.

Azərbaycan güləşçilərindən ilk dəfə 1962-ci ildə Amerika Birləşmiş Ştatlarının Tolido şəhərində keçirilən sərbəst güləş üzrə Dünya çempionatında 52 kq. çəki dərəcəsində Aydın İbrahimov çıxış etmiş və uduzmuşdur. Lakin 1963-cü ildə Bolqarıstanın Sofiya şəhərində 57kq.çəki dərəcəsində çıxış edən Aydın İbrahimov sərbəst güləş üzrə dünya çempionu olmuşdur.

1965-ci ildə İngiltərənin Mançester şəhərində sərbəst güləş üzrə dünya çempionatında 52 kq.çəki dərəcəsində Ramazan Səmədov iştirak etmiş və uduzmuşdur.

1974-cü ildə Türkiyənin İstanbul şəhərində sərbəst güləş üzrə Rafiq Hacıyev dünya çempionatında 2-ci yerə çıxmışdır.

1975-ci ildə Belarusiyanın Minsk şəhərində keçirilən sərbəst güləş üzrə dünya çempionatında Telman Paşayev 2-ci yeri tutmuşdur.

1986-cı ildə Macarıstanın Budapeşt şəhərində Xəzər İsayev sərbəst güləş üzrə 62kq.çəki dərəcəsində dünya çempion olmuşdur.1987-ci ildə isə Fransanın Klermon –Ferran şəhərində Xəzər İsayev dünya çempionatında 2-ci yeri tutmuşdur.

Yunan –Roma güləşi üzrə dünya çempionatları 1904-cü ildən keçirilir.Lakin Sovet idmançıları bu növdə dünya çempionatlarında 1953-cü ildən iştirak edirlər.

1977-ci ildə İsveçin Qoteborq şəhərində Yunan-Roma güləşi üzrə dünya çempionatı 90kq. çəki dərəcəsində Viktor Avdışev VI yeri tutmuşdur.1978-ci ildə isə Viktor Avdışev Meksikanın Mexiko şəhərində 90 kq. çəki dərəcəsində III yerə çıxmış ,Arif Niftullayev 74 kq. çəki dərəcəsində dünya çempionu olmuşdur.

Viktor Avdışev 1979-cu ildə A.B.Ş. San –Diyeqo şəhərində keçirilən Yunan-Roma güləşi üzrə dünya çempionatında 90 kq. çəki dərəcəsində çıxış edərək uduzmuşdur.

1985-ci ildə Norveçin Oslo şəhərində ,1986-cı ildə Macarıstanın Budapeşt şəhərində ,1987-ci ildə Fransanın Klermon –Ferran şəhərində keçirilən Yunan-Roma güləşi üzrə dünya çempionatlarında 48 kq. çəki dərəcəsində dalbadal 3 il Məhyəddin Allahverdiyev dünya çempionu olmuşdur.

Yunan-Roma güləşi üzrə keçirilən dünya çempionatlarında Kamandar Məcidov 62 kq. çəki dərəcəsində 1986-cı ildə çempion olmuş,1987-ci ildə isə 2-ci yerə çıxmışdır.

DOI:10.30546/gdu.2023.359-361

Yunan-Roma güləşi üzrə gənclər arasında keçirilən dünya birinciliyində 1972-ci ildə Əhəd Əliyev 52 kq.çəkidə çempion olmuş ,Rafael Eyvazov 56 kq.çəkidə III yerə çıxmışdır.

1976-cı ildə keçirilən gənclər arasında dünya birinciliyində 48 kq.çəkidə Əli Əliyev və 82 kq. çəkidə Viktor Avdışev çempion olmuşlar.

1977-ci ildə dünya birinciliyində İlham Umayev 48 kq. çəki dərəcəsində dünya çempionu olmuşdur.

1982-ci ildə İlham Həmidov yeniyetmələr arasında 60 kq. çəkidə Yunan-Roma güləşi üzrə dünya çempionu olmuşdur.

Azərbaycan güləşçilərindən Yunan-Roma güləşi üzrə 3 qat dünya çempionu Məhyəddin Allahverdiyevi,Olimpiya çempionu və 2 qat dünya çempionu Fərid Mansurovu, Sərbəst güləş üzrə Olimpiya oyunlarının mükafatçısı, 3 qat dünya çempionu Hacı Əliyevi, Arif və Namiq Abdullayev qardaşlarını, qadın sərbəst güləşçisi, dəfələrlə Olimpiya oyunlarının mükafatçısı 8 dəfə Avropa çempionu və dünya çempionu Mariya Stadniki nümunə göstərmək olar.

2011-ci ildə Türkiyə dövlətinin İstanbul şəhərində keçirilmiş Dünya çempionatında 66 kq. çəki dərəcəsində Cəbrayıl Həsənov III yerə, 74 kq. çəki dərəcəsində Əşrəf Əliyev 2-ci yerə, 84 kq. çəki dərəacəsində Şərif Şərifov çempion olmuş, 120 kq. çəki dərəcəsində Camaləddin Məhəmmədov 3-cü yerə çıxaraq 2012-ci il İngiltərənin London şəhərində keçiriləcək XXX Yay Olimpiya oyunlarına lisenziya qazandılar.

Yunan-Roma güləşi üzrə 55 kq. çəki dərəcəsində Rövşən Bayramov dünya çempionu olmaqla bərabər Olimpiya oyunlarına lisenziya qazandı. Dəfələrlə Dünya çempionatlarının qalibi və mükafatçıları Rafiq Hüseynovu, Vitali Rəhimovu və dünya şempionu Həsən Əliyevi və Elvin Mürsəliyevi misal göstərmək olar.

2012-ci ildə yeniyetmələr arasında keçirilən dünya birinciliyi Bakı şəhərində keçirildi. Həmin birincilikdə sərbəst qız güləşçilərimizdən Türkan Nəsibova 2-ci, Raqenetta Qurbanzadə və Sahilə Ələkbərova 3-cü yeri tutmuşlar.

Sərbəst güləşçilərdən Ruslan Surxayev və Teymur Məmmədov çempion olmuşlar. Mahir Əmiraslanov 3-cü yeri tutmuşdur. Güləşçilərimiz ümumi komanda birinciliyində 2-ci yerə çıxmışdır.

2013-cü ildə sərbəst güləş üzrə yeniyetmələr arasında dünya birinciliyi Serbiya dövlətində keçirilmişdir. Həmin yarışda Teymur Məmmədov çempion olmuş, Gəncə Dövlət Universitetinin tələbəsi Fazil Həsənov 2-ci yeri tutmuşdur. Türkan Nəsirova 3-cü, Mahir Əmraslanov isə 2-ci yerə çıxmışlar.

Sərbəst güləşçi dəfələrlə Avropa və Dünya çempionu Cəbrayıl Həsənovu və Yunan-Roma güləşçisi dəfələrlə Avropa və Dünya çempionatlarının qalibi Rəsul Cunayevi misal göstərmək olar.

Qadın sərbəst güləşçilərdən Leyla Qurbanova Çində keçirilən yeniyetmələrin Olimpiya oyunlarında gümüş medal qazanmış Leyla Qurbanovanı, dünya çempionatlarının mükafatçıları Natalya Şinşinanı, Anjela Dorodonu, İrina Netrevanı, Raqanetta Qurbanzadəni, Türkan Nəsirovanı, Solmaz Həşimzadəni, Şəbnəm Əhmədovanı göstərmək olar.

2015-ci ildə Amerikanın Las-Veqas şəhərində keçirilən dünya çempionatında sərbəst üsulla güləşən güləşçimiz Hacı Əliyev və Yunan-Roma güləşi üzrə Rəsul Cunayev çempion olmuşlar. Yunan-Roma güləşçimiz Rövşən Bayramov 2-ci, Elvin Mürsəliyev 3-cü, sərbəst güləşçilər Xetaq Kazımov və Camaləddin Maqomedov 3-cü yerləri tutmuşlar.Qadın güləşçilər Mariya Stadnik 2-ci, Yulya Ratkeviç 3-cü yerə çıxmışlar.

Sambo güləşi üzrə 7 qat dünya çempionu Ceyhun Məmmədova “ Sambo ulduzu “ adı verilmiş və 3 qat dünya çempionu Zülfiyyə Hüseynovanı misal göstərmək olar. Cü-do güləşi üzrə Olimpiya çempionu Elnur Məmmədəlini nümunə göstərmək lazımdır.

DOI:10.30546/gdu.2023.359-361

Gəncə güləş məktəbinin yetirmələrindən Olimpiya çempionları Toğrul Əsgərovu, parolimpiya çempionu Ramil Qasımovu, cü-do güləşi üzrə dünya çempionu və Olimpiya mükafatçısı Mövlud Mirəliyevi, Sambo güləşi üzrə dünya çempionu Amil Qasımovu, dünya çempionatının mükafatçısı, samboçu Şahin Ələkbərovu, dəfələrlə Avropa və Dünya çempionu, Olimpiya oyunlarının qalibi və iştirakçısı Turan Bayramovu, Sərbəst güləş üzrə 4 qat dünya çempionu, dünya kubokunun sahibi Abil İbrahimovu, Gəncə Dövlət Universitetinin məzunları və tələbələri, Sərbəst güləş üzrə dünya çempionu Rza Xəlilovu, dünya çempionatının və Avropa birinciliklərinin qalibləri və müküfatçıları, sərbəst güləşçilərdən  Elsevər Zeynalovu, Nəsimi İmamquliyevi,Bəhruz Hüseynovu, Vüqar Həsənovu, Mehman İmamquliyevi. Vüsal Həsənovu, Fazil Həsənovu, Cavid Cavadovu, Murad  Haqverdiyevi və əməkdar məşqçilərdən  Faiq Xəlilovu, Vüsal Qarayevi, Arzu Rəhimovu, Nəsimi İmamquliyevi, Əli Hacıyevi, Ceyhun Rəhimovu misal göstərmək olar.

Ölkə prezidenti İlham Əliyev tərəfindən Sərbəst güləş üzrə məşqçi Elçin Zeynalova və Gəncə Dövlət Universitetinin məzunu, Sambo güləşi üzrə məşqçi Əli Hacıyevə “Şöhrət” ordeni təltif edilmişdir.

Gəncənin qadın  Sərbəst güləşçilərindən dünya və Avropa çempionları Jalə Əliyevanı, Şəbnəm Əhmədovanı , Gültəkin Şirinovanı və onların müəllimi, Gəncə Dövlət Universitetinin məzunu “ Əməkdar məşqçi”, “Fəxri bədən tərbiyəsi və İdman işçisi” Mehman Allahverdiyevi misal göstərə bilərik.

Bütün güləşçilərə və onların müəllimlərinə yüksək nailiyyətlər arzulayırıq!

**_Ədəbiyyat_**


1. Məcidov N.B. “ Güləşin nəzəriyyəsi və metodikası. Bakı-2010.
2. Tağızadə S. “ Unudulmaz görüşlər”. Bakı-1977.
3. Quliyev D.  “Azərbaycan ulduzları Olimpiya oyunlarında”. Bakı. – 1996.
4. Qurbanov X. “ İdman güləşinin taktikası “ Bakı.-1991.
5. Dadaşov M. Aslanov S. “ Azərbaycan pəhləvanları “. Bakı.-1989.
6. Qurbanov X. “ Güləş “. Bakı -2015
7. Beynəlxalq güləş qaydaları. Yunan –Roma, sərbəst və qadın güləşi”. Bakı – 2008.
8. Novruzov D. F. “ Güləşmə “. Bakı. – 1992.


## ACHIEVEMENTS OF AZERBAIJANI ATHLETES IN THE WORLD CHAMPIONSHIP

**_Gazakhova Shahnaz Khalilhaji,  Rustamzade Ayad Rustam_**

**_Summary_**

Soviet athletes began to participate in the  world championships in freestyle wrestling since 1954.

Greco – Roman wrestling world championships have been held since 1904.

However, soviet athletes have been participating in the type of world championships since 1953.

In 2012, the junior world championship was held in Baku.

## ДОСТИЖЕНИЯ АЗЕРБАЙДЖАНСКИХ СПОРТСМЕНОВ НА ЧЕМПИОНАТЕ МИРА

**_Газахова Шахназ Халилхаджи кызы, Рустамзаде  Аяд  Рустам  оглы_**

**_Резюме_**

Советские спортсмены стали участвовать в чемпионатах мира по вольной борьбе с 1954 года.

Чемпионаты мира по Греко – Римской борьбе проводятся с 1904 года. Однако советские спортсмены участвуют в этом виде чемпионатов мира с 1953 года.

В 2012-году в Баку прошел чемпионат мира среди юниоров.

**_Rəyçi: dosent Zaur Hüseynzadə_**
**_Bədən tərbiyə və İdman kafedrasının 17 may 2023-cü il tarixli iclasın 05 saylı protokolu_**
**_Daxil olma tarixi 21 iyun 2023-cü il_**